**Yusif QAZIYEV**
*276 saylı orta məktəbin müəllimi*
*əməkdar müəllim, pedaqogika üzrə fəlsəfə doktoru*

# ŞƏHƏR MƏKTƏBLƏRİNİN KİTABXANALARI
## (Azərbaycanda məktəb kitabxanalarının inkişafı tarixindən)

***Açar sözlər:*** *Azərbaycan, məktəb kitabxanaları, şəhər kitabxanaları, kitab fondu, şagird, müəllim, valideyn, kitab, bacarıq*

***Ключевые слова:*** *Азербайджан, школьные библиотеки, городские библиотеки, книги, студенты, учителя, родители, книги, умения*

***Keywords:*** *Azerbaijan, school libraries, city libraries, books, students, teachers, parents, books, skills*

XIX əsrin 70-ci illərindən başlayaraq 31 may 1872-ci il əsasnaməsinə əsasən Azərbaycanda qəza məktəbləri əsasında Şuşada (01.06.1875), Nuxada (01.07.1877), Şamaxıda (1874-1877), Naxçıvanda (06. 07. 1879), Gəncədə (01.09.1884), Zaqatala (01.07.1886), Bakıda 2 dənə (biri 01.09.1889, ikincisi 31.05.1898) və Ordubadda (01.07.1897) yeni tip məktəblər-şəhər məktəbləri təşkil edildi(1). Bu məktəblərin nəzdində əsaslı və şagird kitabxanaları fəaliyyət göstərirdi. Kitabxanaların kitab fondu haqqında arxiv sənədləri dəqiq məlumatlar verir.

Şəhər məktəb kitabxanalarının kitab fonduna dair dəqiq məlumatlar vardır. Əsaslı kitabxana Naxçıvan və Nuxada, şagird kitabxanası isə Şamaxı və Şuşada daha zəngin idi (4).

1881-ci il məlumatına görə kitab fondu cəhətdən Naxçıvan şəhər məktəb kitabxanası həmişə zəngin olmuşdur. Burada 1880-ci ildə əsaslı kitabxanada 3325 cilddə kitab olmuşdur. Həmin ildə Şuşada 1589 manat, Şamaxıda 736 manat dəyərində dərsliklər mövcud idi. Bütün QTD-ə daxil olan şəhər məktəb kitabxanaları içərisində Şuşa və Şamaxı məktəb kitabxanaları dərsliklərin sayına görə ikinci yeri tuturdu (2).

Bütün dövrlərdə Naxçıvan şəhər məktəb kitabxanası həmişə zəngin olmuşdur. 1889-cu ildə Naxçıvan şəhər məktəbində olan knyaz Dondukov-

Kaçakov məktəbin emalatxanasını gəzib şagirdlərin əl işləri ilə, həmçinin kitabxanası və fizika kabineti ilə tanış olduqdan sonra rəy kitabında yazmışdır: "Mayın 20-də Naxçıvan şəhər məktəbində oldum. Tamamı ilə qaydasında olan bu məktəb məndə böyük təəssürat oyatdı. Şəhər üçün faydalı olan bu məktəbin gələcəkdə çiçəklənməsini ürəkdən arzu edirəm..."(3)

Şuşa və Şamaxı şəhər məktəblərinin şagird kitabxanası 1880-ci ildə dərsliklərin sayına görə bütün QTD-ə daxil olan məktəb kitabxanaları içərisində ikinci yeri tuturdu. Həmin ildə Şuşada 1589 manat, Şamaxıda 736 manat dəyərində dərsliklər mövcud idi(2a)

Şəhər məktəblərinin kitabxanalarının kitab fondu ilbəil artmışdır. 1884-cü ildə fəaliyyətdə olan 5 şəhər məktəb kitabxanalarında (əsaslı və şagird kitabxanaları birlikdə) cəmi 13054 manat dəyərində 3874 adda, 9758 nüsxə, 1900-cu ildə fəaliyyətdə olan 9 kitabxanada cəmi 28481 manat dəyərində, 12016 adda, 16151 nüsxə, nəhayət 1913-cü ildə 11 kitabxanada 43895 manat dəyərində, 25105 adda, 54277 nüsxə kitab olmuşdur(4).

Ancaq kitabxanalarda olan kitabların və şagirdlərin sayını nəzərə alsaq heç də normal vəziyyət hesab etmək olmaz. Belə ki, 1884-cü ildə Nuxa məktəbinin şagird kitabxanasında bir şagirdə təqribən 1.2 adda 2 nüsxə, 1913-cü ildə 1.7 adda 4.9 nüsxə, ümumiyyətlə həmin illərdə Azərbaycanda şəhər məktəblərinin şagird kitabxanalarında bir şagirdə orta hesabla təqribən 0.9 adda 1.3 nüsxə əsaslı kitabxanada isə -3.4 adda 5.4 nüsxə kitab düşürdü (4).

Dərsliklər köhnə və azlıq təşkil edirdi. Şuşa şəhər məktəbinin açılışından (1875) 1881-ci ilə qədər olan dövrdə yalnız 4 dərslik dəyişdirilmişdir: Qeddanın "geniş mineralogiya" dərsliyi müəllifin yeni qısa dərsliyi ilə; Lixaçevin "Botanika" dərsliyi Raevskinin "Botanika" dərsliyi ilə; Polevoyun "Müntəxabatı" I hissə, Uşinskinin "Uşaq aləmi", I hissə dərslikləri dəyişdirilmişdir(2b).

Şəhər məktəb kitabxanalarının da vəzifəsi təlim işinə yaxından kömək etmək, müəllimləri pedaqoji və metodiki ədəbiyyatla, şagirdləri elmi, bədii və dərslik kitabları ilə təmin etmək, şagirdlərin təlim prosesində aldıqları bilik, bacarıq və vərdişləri, eləcə də əqli, əxlaqi və estetik tərbiyələrini bir daha zənginləşdirmək, valideynləri şagirdlərin mütaliəsi işinə cəlb etmək, kitabın və mətbuatın valideynlər arasında mütaliəni yaymaq, məktəb və kitabxana ilə valideynlərin sıxı əlaqəsini təmin etmək idi.(2c) Tulupov və P. M. Şeztakov, Уцителбская библиотека, их значение организации и



список книг, Moskva, 1905, səh.9-10; V.N.Marakuyeva, О школных библиотеках, Moskva, 1884, səh.5).

Qeyd edilən vəzifənin həyata keçirilməsində məktəb kollektivi və kitabxananın təşəbbüsü ilə valideynlərlə sıxı əlaqə şəraitində ədəbi-bədii gecələr, səhərciklər və teatr tamaşaları təşkil edilirdi. Müəllim və şagirdlər tərəfindən birgə hazırlanmış bu tədbirlərin həyata keçməsi üçün lazım olan ləvazimatlar ictimaiyyətin köməyi ilə əldə edilirdi ki, bununla da valideynləri məktəbə yaxınlaşdırırdı, həmçinin tədbirlər nümayiş etdirilərkən valideynlər məmnuniyyətlə məktəbə gəlib, baxıb, dinləyirdilər, şagirdlərin yaradıcılıq işləri ilə tanış olurdular. Valideynlərin arzu və təklifləri ilə tədbirlər formalaşıb məzmunlaşırdı. Mənbələrin birində deyilirdi: "Məktəbin ictimaiyyətlə yaxınlaşması bəzi tədris müəssisələrində müəllim və şagirdlər tərəfindən ədəbi-musiqili səhərcik və gecələrin təşkilinə təsir göstərmişdir. Bununla belə ifaçıların əksəriyyəti şagirdlər idi. Mütaliəyə müəllimlər tərəfindən seçilmiş ədəbi əsərlərin buraxılması şərti ilə, onların şüurlu, aydın, ucadan və həm də münasib avazla oxunması, həmçinin ifa edilməyə buraxılan yaxşı mahnıların, musiqi və vokal əsərlərin alətlərdə düzgün və aydın çalınması tələb olunurdu... Ədəbi-musiqili səhərciklər...bəzi şəhər və eləcə də ibtidai məktəblərdə də baş verirdi. Bu yığıncaqlara bina tutana qədər valideynlər buraxılırdı və hər yerdə onlar dinləyicilərə olduqca yaxşı təsir bağışlayırdı (2ç).

Şəhər məktəb kitabxanalarının da vəzifəsi təlim işində yaxından kömək etmək, dərsdən əldə edilən bilik, bacarıq və vərdişlərin möhkəmlənməsinə və dərinləşməsinə kömək etmək, valideynləri şagirdlərin mütaliəsi işinə cəlb etmək, kitabı və mətbuatı valideynlər arasında yaymaq, məktəb və kitabxana ilə valideynlərin sıx əlaqəsini təmin etmək idi. Kitabxananın təşəbbüsü ilə valideynlərlə sıxı əlaqə şəraitində ədəbi-bədii gecələr, səhərciklər və teatr tamaşaları təşkil edilirdi. Müəllim və şagirdlər tərəfindən birgə hazırlanmış bu tədbirlərin həyata keçirilməsi üçün lazım olan ləvazimatlar ictimaiyyətin köməyi ilə əldə edilirdi ki, bununla da valideynlər məktəbə yaxınlaşdırılırdı. Həmçinin tədbirlər nümayiş etdirilərkən valideynlər məmnuniyyətlə məktəbə gəlib, baxıb dinləyirdilər, şagirdlərin yaradıcılıq işləri ilə tanış olurdular. Valideynlərin arzu və təklifləri ilə tədbirlər yeni forma və məzmun alırdı(2d).

Şagirdlər müəllimlərim rəhbərliyi altında tədbirlərə ciddi və mükəmməl hazırlaşırdılar. Şagirdlər bədii ədəbiyyatın mütaliəsinə ciddi həvəs göstərib, proqram materialından əlavə bədii əsərlər və şeirlər öyrənir, musiqi

və incəsənət aləmi ilə tanış olub müəyyən bacarıq və vərdişlərə yiyələnirdilər. Məktəblərlə valideynlər arasında əlaqə genişlənirdi. Bu münasibətlə QTD (Qafqaz Tədris Dairəsi) popeçitelinin 1882-ci il hesabatında deyilirdi: " ... il ərzində bəzi tədris müəssisələrində valideynlərin iştirakı ilə ədəbi-musiqili şagird yığıncaqları düzəldilmişdir. Belə yığıncaqlar nəinki ictimaiyyət və məktəb arasında əlaqəyə təsir göstərir, eləcə də şagirdlər arasında ən yaxşı ədəbi əsərlərin öyrənilməsinə, musiqi və nəğmə məşğələlərinə həvəsin inkişafına kömək edir ki, bu şagirdlərin olduqca düzgün tərbiyəsinin əldə edilməsi məqsədi üçün əhəmiyyətlədir(5)

Apardığı işlərin məzmun və formasına görə şəhər məktəb kitabxanaları qəza və ibtidai məktəb kitabxanalarında daha irəli gedərək şagirdlərə proqram materialından əlavə yeni bilik, bacarıq və vərdişlərin aşılanmasında, onların estetik tərbiyəsinin formalaşmasında və eləcə də Azərbaycanda mədəni həyatın inkişafında müsbət və böyük rol oynamışdır. Onu demək kifayətdir ki, şagirdlərin nümayiş etdirdikləri teatr tamaşaları Azərbaycanda teatr verilişləri atmosferi yaratmış və teatr verilişləri ənənəyə çevrilmiş, bir daha teatr tarixi zənginləşmişdir.

Nəticə olaraq qeyd etmək olar ki, şəhər məktəb kitabxanalarının kitab fondu ilbəil artmış, şagirdləri dərslik və digər elmi, bədii ədəbiyyatla təmin etməklə qəza və ibtidai məktəb kitabxanalarından irəli getmişdir. Ancaq bu tip məktəblərdə də dərslik və bədii ədəbiyyat şagirdlərin sayına görə azlıq təşkil edirdi. Dərsliklər köhnəlmişdir. Şuşa şəhər məktəbinin açılışından 6 il keçdiyinə (1875-1881-ci illər) baxmayaraq bu müddət ərzində 4 dərslik dəyişdirilmişdir: Qeldanın "Geniş mineraloqiya" dərsliyi müəllifin yeni qısa dərsliyi ilə; Lixaçevin "Botanika" dərsliyi Raevskinin "Botanika" dərsliyi ilə; Poevoyun "Müntəxəbatı" 1 hissə və Uşinskinin "Uşaq aləmi" I hissə dərslikləri dəyişdirilmişdir (2e).

## ƏDƏBİYYAT:


1.QTD (Qafqaz Tədris Dairəsi) popeçitelinin 1874-cü il sərəncamı

2.QTD popeçitelinin 1880-ci il sərəncamı, Tiflis (T) 1881, səhifə (səh080-81.

2[a]. QTD popeçitelinin 1880-ci il hesabatı, T. 1881, səh.81.

2[b]. QTD popeçitelinin 1880-ci il hesabatı, T.1881, səh.81-82.





2[c]. QTD popeçitelinin 1882-ci il hesabatı, T. 1883, səh.191.

2[ç]. QTD popeçitelinin 1880-ci il hesabatı, T.1881, səh.160.

2[d]. Yenə orada.

2[e]. QTD popeçitelinin 1880-ci il hesabatı, T. 1881, səh.81-82.

3. QTD popeçitelinin 1883-cü il sərəncamı, T. 1883, №5, səh.188; №12, səh 121, əlavə cədvəllər 16, 17.

4. QTD popeçitelinin 1884-cü il hesabatı, T. 1885, səh.121, Əlavə cədvəllər: 16, 17; QTD popeçitelinin 1913-cü il hesabatı, T. 1914, cədvəl № 16.

5. QTD popeçitelinin 1882-ci il hesabatı, T. 1883-cü il. Səh.191.


**Ю.Газиев**

## "ГОРОДСКИЕ ШКОЛЬНЫЕ БИБЛИОТЕКИ" В АЗЕРБАЙДЖАНЕ

### РЕЗЮМЕ


Статья называется "Городские школьные библиотеки" в Азербайджане. В статье говорится, что начиная с 70-Х годах XIX века били созданы в 9-Х городских школах библиотеки в Азербайджане.

В этой статье отмечаются ценные информации о книжных фондах и обязанностях библиотек. Также обширно говорится о режиме, методах, правилах обмен книг. Самая заметная служба в том, что они служили не только ученикам и учителям, так же для широкой массе народа- молодежи и родителям.


**Y.Qaziyev**

## "THE CITY SCHOOL LIBRARIES" IN AZERBAIJAN

### SUMMARY


In the article is named " The city school libraries" in Azerbaijan. In the article is spoken that there formed libraries in city schools in Azerbaijan at the end of the 70th XIX century.

The valuable information about the book fund and libraries duty is noted in the article. About the regime of work, methods and rules if book exchange is given in the article too. The most important service of the city school libraries was that they served not only students and teachers but also the wide mass population-young people and parents.